

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 141 (23.553)

27 avqust 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Bakının Xəzər rayonunun Buzovna qəsəbəsində yenidən tikilən 99 mənzildən ibarət yeddimərtəbəli yataqxana binasının açılışında iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva binada yaradılan şəraitlə tanış olublar.

* * *

Həmin gün Bakının Xəzər rayonunun Qala qəsəbəsində yeni inşa olunan 216 nömrəli tam orta məktəb binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım yeni təhsil ocağında yaradılan şəraitlə tanış olublar.

* * *

Avqustun 26-da Bakının Suraxanı rayonundakı Səttar Bəhlulzadə adına Mədəniyyət Evinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.



*“İxrac ili” – 2020*

## İxrac potensialının artırılması tədbirləri son aylarda da davam etdirilib




***Ümumi iqtisadi inkişafda xüsusi çəkiyə malik məqamlardan biri də yüksəkkeyfiyyətli, yerli istehsal məhsullarının dünya bazarlarına çıxarılması, ixrac potensialının gücləndirilməsidir. Bu həm də xarici ticarət tərəfdaşları ilə münasibətlərin daha sürətlə inkişaf etməsinə, beynəlxalq əməkdaşlığın dərinləşməsinə təsir göstərən əsas amillər sırasında yer alır. İxrac imkanlarının daim artan xətt üzrə inkişaf etməsi muxtar respublikada həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə 2020-ci ilin “İxrac ili” elan edilməsi istehsal olunan məhsulların ixracının təkmilləşdirilməsinə, sahibkarlara yerli ixrac imkanlarından daha səmərəli istifadəyə şərait yaratmışdır.***






Muxtar respublikanın iqtisadi qüdrətinin artması, həyata keçirilən diversifikasiya siyasəti, müasir texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə müəssisənin fəaliyyəti xarici ticarətdə müsbət meyillərə təkan vermişdir. Qazanılmış uğurlar muxtar respublikanın ixrac potensialının artmasını təmin etmiş, sənaye məhsullarının ixracının da genişlənməsinə səbəb olmuşdur. Belə ki, 2020-ci ilin 6 ayı ərzində muxtar respublikanın xarici ticarət dövriyyəsi 222 milyon 735 min 500 ABŞ dolları təşkil etmişdir ki, bunun da 68,3 faizi sənaye məhsullarının payına düşmüşdür.

Muxtar respublikada Şərur Sənaye Məhəlləsinin, istehsal və xidmət sahələrinin yaradılmasının davam etdirilməsi gələcəkdə sənaye sektorunda istehsal və ixrac potensialını daha da artıracaqdır.

İxrac sahəsində əldə olunan nailiyyətlərin davamı olaraq cari ilin iyun-iyul aylarında Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən bir sıra təşkilati işlər görülmüşdür. Yerli istehsal məhsullarının ixrac potensialının artırılması, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi istiqamətində sahibkarların, eləcə də ailə təsərrüfatlarının həm ölkə daxilində, həm də xaricdə keçirilən mühüm iqtisadi tədbirlərdə iştirakı nəzarətdə saxlanılmış, iyun-iyul aylarında onlayn şəkildə keçirilən 2 beynəlxalq əhəmiyyətli sərgi və konfransda bir ailə təsərrüfatçısının və 3 sahibkarlıq subyektinin nümayəndələrinin iştirakı təmin olunmuşdur.

Muxtar respublikanın iqtisadi inkişafında ilkin mərhələ keyfiyyətli məhsul istehsal etməklə əhalinin tələbatını ödəməkdən ibarət idisə, hazırkı mərhələ həmin məhsulların rəqabət qabiliyyətini artırmaqla ixracına nail olmaq məqsədi daşıyır.

Qeyd etmək yerinə düşər ki, bu gün dünya bazarına rəqabətqabiliyyətli məhsul çıxarılması, ilk növbədə, keyfiyyət amilinin beynəlxalq tələblərə cavab verməsi ilə bağlıdır. İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin yerli məhsulların ixrac potensialını artırmaqda və onların xarici bazarlara çıxarılmasını asanlaşdırmaqda müstəsna rolu var. Belə ki, cari ilin iyun-iyul aylarında travertin, mebel, siyenit mərmər, vafli, “Badamlı” və “Sirab” mineral sularının Oman Sultanlığı, Gürcüstan, Yəmən, Əfqanıstan kimi ölkələrə ixrac olunması məqsədilə mərkəz tərəfindən 25 halda mənşə sertifikatı verilmişdir.

Bu gün muxtar respublikada istehsal olunan məhsulların 10-dan artıq ölkəyə ixrac edilməsi onu deməyə əsas verir ki, Naxçıvanda yüksəkkeyfiyyətli məhsul istehsal edən müəssisələrin sayı davamlı olaraq artır. Bu, eyni zamanda iqtisadi siyasətin prioritetlərindəndir. Keyfiyyət bizim üçün əhəmiyyətli göstəricidir. Çünki istehsal olunan məhsulların yüksəkkeyfiyyətli olması həmin məhsulların ixrac bazarlarında rəqabət qabiliyyətinin artması, eyni zamanda istehlakçılarımızın keyfiyyətli məhsul istehlak etmək hüququnun təmin olunması deməkdir.

Muxtar respublika rəhbərinin diqqət və qayğısı, ixracın stimullaşdırılması sahəsində qəbul olunan qərarlar, sahibkarlığa sistemli dövlət dəstəyi ixrac imkanlarını bundan sonra da artıracaq, iqtisadi əlaqələrimiz genişlənəcək, yerli məhsullarımızın dünya bazarlarında daha geniş çeşiddə təmsil olunmasına şərait yaradacaqdır.

**Mehparə MƏMMƏDOVA**
*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Elmi-Tədqiqat Tədris Mərkəzinin elmi işçisi*

## Payız-qış mövsümünə hazırlıq məsələləri müzakirə olunub



Babək rayonunda 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilib. Tədbiri rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov açaraq bildirib ki, 2020-2021-ci illərin payız-qış mövsümündə rayon mərkəzində yerləşən 4 təşkilat və 4 məktəbdənkənar müəssisə qazla, qalan təşkilatlar isə müasir istilik sistemi ilə qızdırılacaqdır. Bununla bağlı verilən tapşırıqlara uyğun olaraq rayondakı qazanxanalara baxış keçirilib, çatışmazlıqlar müəyyənləşdirilib və onların aradan qaldırılması ilə əlaqədar işlər aparılır. Qazanxana ilə qızdırılmayan bir neçə mədəniyyət müəssisəsi üçün tələb olunan yanacaq və digər materiallar barədə aid qurumlara məlumat verilib.

İcra başçısı deyib ki, əhalini payız-qış mövsümündə dayanıqlı mavi yanacaqla təmin etmək üçün yeni tikilən 114 evə və 9 obyektə qaz xətti çəkilib.

Vurğulanıb ki, payız-qış mövsümündə əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə rayon Elektrik Şəbəkəsi tərəfindən xətlərdə təmir işləri aparılıb, sıradan çıxmış dayaqlar yeniləri ilə əvəz edilib, 3 yeni transformator yarımstansiyası istifadəyə verilib. Sakinlərin rahatlığını təmin etmək üçün rayonun Şəkərabad kəndində smartkarttipli sayğaclar quraşdırılır.

“Rayon Rabitə İdarəsi montaj tutumu 13 min 536 nömrə olan 33 elektron ATS-lə 10 min 73 abunəçiyə və 4540 genişzolaqlı internet istifadəçisinə xidmət edir”, – deyən icra başçısı bildirib ki, hazırda idarə tərəfindən payız-qış mövsümünə hazırlıq məqsədilə şəhər, qəsəbə və kəndlərdəki rabitə xətlərində cari təmir işləri aparılır.

Babək Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsi tələbata uyğun dərman preparatları və tibbi avadanlıqlarla təminatı davam etdirməli, səhiyyə maarifinə diqqəti artırmalı, rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən qrafikə uyğun dezinfeksiya işləri aparılmalıdır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətindəki müşavirəni xidmətin rəisi Əli Hüseynəliyev açaraq məruzə edib. Bildirib ki, xidmətin payız-qış mövsümünə hazırlıq komissiyası Sədərək rayonunun Heydərabad qəsəbəsinə və digər rayonların ucqar dağ kəndlərinə işləyən nəqliyyat vasitələrinin sahibkarları ilə görüşərək mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində lazımi köməklik göstərib, əlavə olaraq Ordubad rayonunun Məzrə kəndindən şagirdlərin Üstüpü kənd tam orta məktəbinə daşınması üçün ayrılmış “UAZ-3962” markalı mikroavtobus yeni dərs ilinin başlanmasına hazırlıqla əlaqədar tam təmir olunub və xidmət üçün hazır vəziyyətə gətirilib.

Qeyd edilib ki, “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda qarşıya qoyulmuş tapşırıqların icrası məqsədilə şəhərdaxili nəqliyyatda istifadə edilməsi üçün 6 ədəd “King-Long” markalı yeni avtobus alınaraq gətirilib. Avtobuslarla birlikdə dəyəri 66 min manat olan ehtiyat hissələri də alınıb ki, bu da əvvəlki illərdə gətirilmiş və təmirə ehtiyacı olan avtobusların daim saz vəziyyətdə saxlanılmasına, 2020-2021-ci illərin payız-qış mövsümü ərzində baş verəcək nasazlıqların vaxtında aradan qaldırılmasına imkan yaradacaq. Məskunlaşmanın sıx olduğu Xətai və 21-ci məhəllələrdə yaşayan sakinlərin ictimai nəqliyyata olan tələbatını ödəmək məqsədilə açılmış 9 nömrəli marşrut, həmçinin şəhər mərkəzinə çıxışı asanlaşdırmaq üçün yeni açılmış 10 nömrəli marşrut payız-qış mövsümü ərzində sərnişinlərin lazım olan yerə vaxtında çatdırılmalarını təmin edəcək. Altı nömrəli marşrut xətti isə Babək şəhərindək uzadılıb ki, bu da Babək şəhər sakinlərinin payız-qış dövründə bu marşrutdan rahatlıqla istifadəsinə imkan verəcək.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

*27 iyul 1963-cü il... Moskvada SSRİ və İran nümayəndə heyətləri arasında geniştərkibli görüş keçirilir. Görüşdə müxtəlif sahələr üzrə əməkdaşlıq məsələləri müzakirə olunur, sovet sənayesində əldə olunmuş texniki yeniliklərin İran iqtisadiyyatına verəcəyi töhfələr haqqında danışılır. Sonra iki ölkə arasında reallaşdırılacaq layihələrin perspektivliyi bir daha nəzərdən keçirilir, yekun olaraq iqtisadi və texniki əməkdaşlıq haqqında birinci İran-Sovet sazişi imzalanır. Razılaşmaya görə, İran qaz kəməri, İsfahandakı metallurgiya zavodu, elevatorlar, Ərəkdəki maşınqayırma zavodu və digər obyektlər SSRİ-nin texniki yardımı ilə reallaşacaqdı. Sazişin bir bəndi isə Naxçıvanla bağlı idi...*



*Jurnalist araşdırması*

# Bu obyekt müstəqillik illərində Naxçıvanın yeganə ümid yeri idi

## *50 yaşlı bu tikintinin inşasına 1800-dək işçi, 360-dan çox texnika cəlb olunmuşdu...*

Tarixi zənginlikləri ilə seçilən Naxçıvanda hər qarışın, hər daşın, hər tikilinin öz maraqlı tarixi var. Bəlkə də, bundan irəli gəlir ki, bu qədim diyar həmişə böyük dövlətlərin bu və ya digər şəkildə ümumi maraqlarının kəsişdiyi, bəzən də üst-üstə düşdüyü ərazilərdən olub. Elə birgə maraqların təsdiqi kimi, həyata vəsiqə qazanmış Araz Su Elektrik Stansiyası kimi...

Bu stansiyanın tikintisi (su anbarı da daxil) 6 il vaxt aparmışdı. Layihənin reallığa çevrilməsi üçün çay boyunca yerləşən kəndlərdən yüzlərlə ailə köçürülmüş, dəmir yolu xətti Şahtaxtı stansiyasınadək 100 metrədək içəriyə doğru çəkilmişdir. II Dünya müharibəsindən sonra yerli xammaldan istifadə etməklə iqtisadi vəziyyətini yüksəltməyə çalışan imperiya dövləti üçün Naxçıvanın faydalı qazıntılarından yararlanmaq, daşduz, travertin, molibden, əhəng, mineral su yataqlarından istifadə etmək üçün yeni sənaye müəssisələri qurmaq böyük gəlirlər vəd edirdi. Lakin Naxçıvanda bu istehsalı təkcə Ermənistan ərazisi vasitəsilə gələn elektrik verilişi xətləri ilə təmin etmək çətin idi. Həmçinin burada yeni su anbarı yaratmaqla minlərlə hektar sahəni suvarmaq mümkün olacaqdı ki, bu da iqtisadi baxımdan çox sərfəli idi. Bütün bunlardan əlavə, SSRİ-nin cənub-qərb sərhədlərində möhkəmlənməsi üçün də enerjiyə böyük tələbat vardı. Ancaq imperiya beynəlxalq konvensiyalara görə bu işi tək görə bilməzdi, daha doğrusu, transsərhəd çaylarından birtərəfli qaydada yararlanmaq mümkün deyildi. Ona görə də bu müştərək iş haqqında ilk təklif sovetlərdən gəlmişdi və SSRİ İran ərazisində həyata keçirdiyi digər layihələri də göz önünə gətirərək partnyorlarını bu işə razı sala bilmişdi...

Bağlanılmış sazişdən qısa müddət sonra Araz sahilində mühəndis-texniki hesablamalara başlanılır. İlk olaraq su anbarının salınacağı ərazi müəyyənləşdirilir. Bu, çox mühüm məsələ idi. Çünki seçilən ərazi su ehtiyatı yaratmaqla yanaşı, həm də respublika ərazisində çayın axınını nizamlayacaqdı. Bütün hesablamalar yekunlaşdıqdan sonra 1964-cü ildə tikinti işlərinə başlanılır. Buradakı tikinti işləri böyük bir ərazini əhatə edirdi. Yaradılacaq su anbarının uzunluğu 52 kilometrə, eni isə bəzi yerlərdə 6,1 kilometrə çatacaqdı. Bu isə Arazın yaxınlığında yerləşən Təzəkənd, Yamxana, Bulqan, Qaraçuq və Böyükdüz kəndlərinin su altında qalması ilə nəticələnəcəkdi. Buna görə də təsdiq olunmuş plana əsasən həmin kəndlərin əhalisi olduqları yerdən köçürülməli və onlar müvafiq evlərlə təmin olunmalı idilər. Beləliklə, Arazda Su Anbarının tikintisi ilə yanaşı, həm də yeni salınan yaşayış məntəqələrində böyük tikinti işlərinə başlanılmışdı və 1970-ci ilə qədər keçmiş Naxçıvan rayonunun Təzəkənd və Yamxana kəndlərinin əhalisi indiki Babək şəhərinin olduğu əraziyə (1965-ci ildən burada həmin sakinlər üçün yaşayış binalarının tikilməsinə başlanılmışdı) digər kəndlərin əhalisi isə Qaraçuq, Bulqan və Böyükdüz kəndlərinə köçürülür. Köçürülmə zamanı həmin ailələrə Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Əmək Ehtiyatlarından İstifadə Komitəsi tərəfindən xüsusi köçürmə biletləri verilir. Həmin biletlərdə köçən ailə üzvlərinin sayı, köçmə və




gəlmə haqqında qeydlər aparılır. Su anbarının inşası Son Tunc və İlk Dəmir dövrlərinə aid köhnə Böyükdüz yaşayış yeri, fransız hərbçiləri tərəfindən 1809-1810-cu illərdə tikilmiş tarixi Abbasabad qalasının qalıqlarının su dəryaçasının altında qalması ilə nəticələnir...

Araz Su Anbarı və Elektrik Stansiyasının tikintisi sovet dövründə Naxçıvanda aparılmış ən böyük tikinti obyekti idi. Su anbarının tikintisi üçün çayın üzərində hündürlüyü 34 metr olan bənd ucaldılır. Bəndin üstdən uzunluğu 1 kilometr 26 metr, eni isə 12 metrə çatırdı. Bu isə anbarda 1350 milyon kubmetr su saxlamağa imkan verirdi ki, bu suyun faydalı həcmi 1150 milyon kubmetr idi. Həm su anbarının, həm də elektrik stansiyasının tikintisi üçün bura böyük inşaat dəstələri cəlb olunmuşdu.

Yazını hazırlayarkən həmin dövrdə burada çalışmış insanlardan çox azını tapa bildim. Nə də olsa, üzərindən 50 il vaxt keçir. Hərbi xidmətdən yeni qayıtmış birinin bu inşaatda işə başlamasını nəzərə alsaq, axtaracağım müsahibimin yaşı ən az 70-dən yuxarı olmalı idi. Ancaq sonda istəyimə çatıram. Muxtar respublikamızın ağsaqqal ziyalısı, Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Firudin Süleymanovun vaxtilə bu hidroqurğunun tikintisində işlədiyini eşitdikdə çox sevinirəm. İxtisasca iqtisadçı olan Firudin müəllim 1968-ci ildə ora baş iqtisadçı olaraq göndərilir və 1970-ci ilədək maliyyə-mühasibatlıq işlərində çalışır, tikintinin sonuna yaxın isə ləğvetmə komissiyasının üzvü olur (Ləğvetmə komissiyası obyektin təhvil verilməsinə məsul olan komissiyadır). Köhnə xatirələri düşüncələrində canlandıran müsahibimiz deyir ki, Araz Su Elektrik Stansiyası, həqiqətən, böyük tikinti obyekti idi. Burada SSRİ-nin müxtəlif şəhərlərindən cəlb olunmuş mühəndis və texniki işçilər çalışırdı. Mühasibatlıq sahəsində çalışdığım üçün yaxşı xatırlayıram ki, tikintiyə yerli inşaat kollektivləri də daxil olmaqla, 1800-dək işçi, 360-dan çox texnika cəlb edilmişdi. Torpaq bəndlərin inşasında istifadə olunan ağırtonnajlı avtomobillərin sayını artırmaq üçün Belarusiyaya ezam olunduğum da yaxşı yadımdadır. Bu qədər işçini yerləşdirmək də asan məsələ deyildi, – deyən Firudin müəllim söhbətinə davam edir: – Bunun üçün inşaat gedən ərazinin yaxınlığında Rusiyadan gətirilmiş 500-dək vaqon-evlər quraşdırılmışdı. Həmin vaqon-evlərin içərisində yataq otağı, kiçik mətbəx və hamam yerləşirdi. Bundan əlavə, ərazidə, təxminən, 150 nəfərlik 3 yeməkxana və ərzaq mağazası da tikilmişdi. Kənardan baxanda bu ərazi, sanki bir qəsəbəni xatırladırdı. Tikinti başa çatdıqdan sonra sökülüb-yığılan bu evlərin hamısını dəmiryol vaqonlarına yükləyib apardılar. Sonralar, təxminən, 80-ci illərdə həmin vaqon-evlərin bir neçəsini mən Şamaxı rəsədxanasında olarkən orada görmüşdüm.

Naxçıvan şəhər sakini, hazırda təqaüddə olan Abbas Abbasov da Araz SES-də çalışanlardan biridir. Deyir ki, gənclik illərimdə Arazda, sonra isə Arpaçayın tikintisində çalışmışam. Arazdakı daha nəhəng tikinti idi. Orada bir çox maraqlı xatirələr olub. Həmin xatirələrdən biri də bu idi ki, tikintiyə yeni başlayan zaman həm SSRİ, həm də İran tərəfdən təməlatma mərasimi təşkil olunmuşdu. İran tərəfindən iştirak edən səlahiyyətli nümayəndə tikintiyə xeyir-duasını verdikdən sonra ovcundakı qızıl pulları beton töküləcək təməl hissəyə atdı. Protokol qaydalarına görə, SSRİ tərəfi də hazırlıq görmüşdü və bir kisənin yarısına qədər istifadə olunmamış, par-par parıldayan 5 qəpiklik pulları həmin yerə boşaltdı. Hər iki tərəfdən alqış sədaları eşidilməyə başladı. Bu hadisəni hazırda Babək şəhərində yaşayan, vaxtilə həm Araz və Arpaçay, həm də Şəmkir Su Elektrik stansiyalarının tikintisində işləmiş, yaşına görə çox gümrah görünən 80 yaşlı Mehdi Əsgərov da təsdiqləyir. Tikinti haqqında soruşuruq. Deyir ki, su elektrik stansiyasının tikintisinə başlayanda burada işlər növbəli sistemə keçmişdi. Hara baxırdın texnikaların səsindən qulaq tutulurdu. Tikinti üçün Təzəkənd yaxınlığında ayrıca beton zavodu da tikilmişdi. Qum-çınqıl ehtiyatı burada tədarük olunurdu. Sement isə hidrotikintilərdə istifadə olunan xüsusi markalı sement idi və Ukraynadan gətirilirdi. Yəni adi tikintidə istifadə olunan sement deyildi, markası “S-800” idi. Bu sement milyonlarla ton ağırlıqda suyu saxlamağa qadir, eyni zamanda bərkiyəndən sonra qranitdən də sərt bir sement növü idi. Yalnız böyük su anbarlarının, bəndlərin tikintisində istifadə olunurdu.




1970-ci ilin avqust-sentyabr aylarında Arazda işlər daha da sürətlənir. Həmin dövrdə “Şərq qapısı” qəzeti yazırdı: *“Əsrlərboyu sakit axan Arazın sahillərində indi gecə də, gündüz də iş bulaq kimi qaynayır. Araz Su Tikinti İdarəsinin kollektivi işə ürəkdən girişmişlər. Tikintidə çalışan ayrı-ayrı kollektivlər daha yüksək göstəricilərə nail olmuşlar. R. Həmidovun başçılıq etdiyi mexanizasiya və avtonəqliyyat idarəsinin, A.Sobolevin başçılıq etdiyi tikinti-quraşdırma idarəsinin, V.Stankeviçin başçılıq etdiyi quraşdırıcılar dəstəsinin üzvləri öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Quraşdırıcılardan V.Qaqanov, V.Kanovalov, H.Qayıbov, İ.Pavlenko hər gün nəzərdə tutulduğundan daha artıq iş görürlər…”* Qəzetin digər bir nömrəsində isə oxuyuruq: *“Araz Su Elektrik Stansiyasının ilin sonuna istifadəyə verilməsi SSRİ-nin 50 illiyinə böyük töhfə olacaq. Hazırda elektrik stansiyasının yaxınlığında yerləşən quraşdırma bazasında böyük avadanlığın qovşaqları quraşdırılır. Burada üzərində Leninqrad, Minsk, Zaporojye, Krasnoyarsk zavodlarının markaları olan texnikalara rast gəlmək mümkündür. İndi quraşdırıcılar Arazın sağ və sol sahilində hər biri 260 ton ağırlığında yük qaldıran iri qülləli kranlar quraşdırır. Həmin kranlar hidroelektrik stansiyasını təhlükəli hadisələrdən qorumaq üçündür. Bəndin qapıları həmin kranlar vasitəsilə qaldırılıb endiriləcəkdir. Mühəndis V.Butov bu işin peşəkarıdır. O, indiyədək ittifaqın bir çox yerlərində çalışıb…”* Yeri gəlmişkən, burada çalışan peşəkar mütəxəssislərin bir neçəsi də Asuan bəndinin tikintisindən sonra Araza göndərilmişdi.

***Haşiyə:*** Nil çayı üzərində tikilən Asuan bəndi Misir prezidenti Nasir tərəfindən çiçəklənən Misirin simvolu kimi düşünülmüşdü. Bu böyük layihəyə Britaniya və ABŞ maliyyə-texniki cəhətdən kömək edəcəklərinə əvvəlcə söz versələr də, sonra bundan imtina etdilər və bənd SSRİ-nin dəstəyi ilə 1960-1970-ci illərdə tikildi. Asuanın tikintisi zamanı Nilin qarşısı 110 metr hündürlükdə divarla kəsildi və burada elə böyük su anbarı yarandı ki, hətta onun bir hissəsi Sudan ərazisindədir. Ancaq kifayət qədər ambisiyalı olan bu tikili istifadəyə verildikdən sonra Misirə gözlənilən xeyri gətirmədi. Bu isə artıq başqa söhbətin mövzusudur.

1970-ci ilin payızında Arazda işlər yekunlaşdırılsa da, bəzi texniki məsələlərə görə stansiyanın açılışı gecikir. Həmin vaxt tikintinin baş mühəndisi V.N.Razin mətbuata açıqlamasında deyir: *“Yaz vaxtı çayın suyunun həddindən artıq artması sağ sahildə quraşdırılmış aqreqatları işə salmağa mane olur, hətta hidroloqların dediyinə görə, bir neçə əsr olar ki, Arazın suyu bu qədər artmamışdır. O vaxt su işə yalnız maneə törədirdi. İndi isə çayın suyu azaldığından anbarı doldurmaq mümkün deyil. Qurğunu işə salmaq üçün bu nəhəng anbarda suyun səviyyəsi heç olmazsa, 14 metrə çatmalıdır, ancaq hazırda səviyyə cəmi 9 metrdir…”*

Beləliklə, texniki işlər tam sona çatmadığından stansiyanın istifadəyə verilməsi 1971-ci il iyunun 28-də baş tutur. Açılış mərasimində SSRİ Nazirlər Soveti sədrinin müavini M.T.Yefremov və İran baş nazirinin iqtisadiyyat məsələləri üzrə müavini S.Əsfiya başda olmaqla, hər iki tərəfdən rəsmi şəxslər iştirak edirlər. Turbinlər işə salındıqdan sonra təbriklər söylənilir, yeni obyektin hər iki tərəf üçün uğurlu olması arzulanır.

Bir məsələni də qeyd edək ki, stansiyanın tikildiyi 1964-1970-ci illərdə Naxçıvan şəhərinin mərkəzində Arazda işləyən işçilər üçün yeni yaşayış binaları da (“Arazstroy”un binaları) tikilir. 1967-ci ildə muxtar respublikada Tofiq Axundovun rəhbərliyi ilə “Araz” futbol komandası formalaşmağa başlayır. Həmin ildə Nəriman Sadıqov “Araz” Mahnı və Rəqs Ansamblını yaradır. Həmçinin həmin dövrlərdə Şahbuz rayonunun Ağbulaq, Gömür kimi kəndlərində “Araz” pioner düşərgələri fəaliyyətə başlayır. Bir sözlə, həmin illərdə Naxçıvanda, sözün əsl mənasında, bir “Araz fırtınası” yaşanır.

*... Ötən əsrin 90-cı illərində mənfur düşmənlərimiz tərəfindən blokadaya salınan Naxçıvan böyük enerji problemləri ilə üzləşir. Həmin dövrdə Naxçıvanın enerji təminatında yeganə rolu Araz Su Elektrik Stansiyası oynayır. Bu stansiyada istehsal olunan 15-20 meqavat elektrik enerjisi fasilələrlə muxtar respublikanın enerji xətlərinə ötürülür. Məhz həmin dövrdə ulu öndər Heydər Əliyevin şəxsi nüfuzu sayəsində qonşu İran İslam və Türkiyə respublikaları ilə əldə olunmuş razılığa əsasən idxal olunan enerji hesabına Naxçıvanın enerji təminatı nisbətən yaxşılaşdırılır. Növbəti illərdə isə dahi şəxsiyyətin Naxçıvan üçün arzuladıqları həyata keçərək muxtar respublika enerji idxal edən regiondan enerji ixrac edən regiona çevrilir. İndi İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında inkişaf edən əlaqələr digər sahələr kimi, enerji sahəsini də əhatə etməklə gələcəyə daha böyük perspektivlər vəd edir. Araz Su Elektrik Stansiyası isə yaddaşlarımızda müstəqilliyimizin ilk illərində blokadaya salınmış Naxçıvanın yeganə ümid yeri kimi xatırlanır…*

**Səbuhi HƏSƏNOV**

# Oxucu məktubları

*Minnətdarlıq*

## Ürəyimizdən xəbər verən sərəncam

***Hörmətli redaksiya!***

Azərbaycanımızın qədim guşələrindən olan Naxçıvanın yetirdiyi akademik Yusif Məmmədəliyev və Validə Tutayuq, eləcə də digər alimlər yüksək elmi nailiyyətləri ilə xalqımızı bütün dünyaya tanıdıblar. Müstəqillik əldə etdikdən sonra muxtar respublikamızda təbiət elmlərinin də yüksək səviyyədə tədrisinə dövlət tərəfindən yaradılan müasir şərait bu sahəyə marağı artırıb.

Avqustun 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin yaradılması haqqında imzaladığı Sərəncam kimya və biologiya fənləri üzrə şagirdlərin istedad və bacarıqlarının aşkar edilməsi və inkişafı, həmçinin gələcək ixtisas seçiminin istiqamətləndirilməsi məqsədilə yenitipli təhsil müəssisələrinin yaradılması baxımından mühüm əhəmiyyətə malikdir.

Qeyd etmək istəyirəm ki, bu sərəncam ailə üzvlərimizin ikiqat sevincinə səbəb olub. Məsələ burasındadır ki, ailə üzvlərimizin bir neçəsi kimya və ya biologiya ixtisasları üzrə mütəxəssis, ya da bu elmlərin əsasını təşkil etdiyi ixtisas sahibidirlər. Belə ki, mən 1980-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunda Biologiya-kimya ixtisasını fərqlənmə diplomu ilə bitirdikdən sonra Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbdə (əvvəllər Əliabad qəsəbə orta məktəbi) pedaqoji fəaliyyətə başlamışam. Bu gün də həmin təhsil ocağında fəaliyyətimi davam etdirirəm. Dərs dediyim buraxılış sinif şagirdlərinin çoxu hər il qəbul imtahanlarında əldə etdikləri uğurlarla ailə üzvləri ilə yanaşı, pedaqoji kollektivimizin də yüksək sevincinə səbəb olur.

Həyat yoldaşım Tofiq Əliyev kimya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvüdür. O, uzun müddət Naxçıvan Dövlət Universitetində müxtəlif vəzifələrdə çalışmaqla kimyaçı kadrların hazırlanması işində yaxından iştirak edib, 2019-cu ilin oktyabr ayından AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunda direktor vəzifəsində çalışır, muxtar respublika ərazisində geniş yayılmış mineralların, mineral suların tədqiqi və istehsalatda tətbiqi ilə bağlı işlərin aparılmasında, eləcə də yüksəkixtisaslı kadrların hazırlanması sahəsində fəaliyyət göstərir.

Kiçik qızım Rüxsarə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsini bitirib, əvvəllər Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında həkim kimi çalışıb, ailə qurması ilə əlaqədar olaraq Bakı şəhərinə köçdüyündən həkimlik sahəsində fəaliyyətini orada davam etdirir.

Gəlinim İlkay da həmin fakültəni və rezidenturanı bitirib, Naxçıvan Dövlət Universitetinin dissertantıdır. O, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında baş həkimin müavini vəzifəsində çalışır. Bütün bunları sadalamaqda məqsədim Ali Məclis Sədrinin müvafiq sərəncamının bizim ailəliklə ikiqat sevincimizə səbəb olduğunu bildirməkdir.

Onu da qeyd edim ki, bu gün muxtar respublikada yeni və ixtisasyönümlü təhsil müəssisələrinin yaradılması bir ənənə halını alıb. Buna ən gözəl nümunə hər il təhsil sahəsində uğurlar qazanan, məzunlarının sorağı müxtəlif ali məktəblərdən gələn Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydir. Şübhə etmirəm ki, yeni yaradılacaq lisey də doğma diyarımızda təbiət elmlərinin dərindən öyrənilməsinə və inkişafına öz töhfəsini verəcək, bu elm sahələri üzrə xüsusi fitri istedadı olan şagirdlərin elmi potensiallarını düzgün istiqamətləndirməklə gələcəkdə yerli peşəkar kadrların hazırlanması işində öz sözünü deyəcəkdir. Onu da qeyd edim ki, muxtar respublikamızda bu ixtisası seçənlərin gələcəkdə mükəmməl ali təhsil almaları, fəlsəfə və elmlər doktorları kimi yetişib fəaliyyət göstərmələri üçün də hər cür şərait vardır. Biz mütəxəssislər də öz bilik və təcrübəmizlə bu işə yaxından köməklik göstərməyə hazırıq.

**Xuraman ƏLİYEVA**
***Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin biologiya və kimya müəllimi***

*Razılıq*

## Vətən uğrunda fədakarlıq göstərənlər unudulmur



*Salam, hörmətli "Şərq qapısı" qəzetinin əməkdaşları!*

Bu məktubu redaksiyanıza ünvanlayaraq sevincimi oxucularla bölüşmək, dövlətimizə minnətdarlığımı çatdırmaq istəyirəm.

90-cı illərin əvvəlində xalqımızın başının üstünü qara buludlar alanda mən də digər polis yoldaşlarım kimi, Sədərəkdə və Şahbuzda düşmən hücumlarının qarşısının alınmasında iştirak edirdim. Həmin döyüşlərdə bir çox silahdaşlarımızı itirsək də, bir an belə, geri çəkilmədik. Mən həmin döyüşlərdə ağır yaralandım. Qazi oldum. O vaxtlar muxtar respublikamız çox çətin vəziyyətdə olsa da, digər yaralı hərbçi yoldaşlarım kimi, mənim də hər cür ehtiyacım qarşılandı, müalicə edildim. Uzun illərdir, bu qaygını üzərimizdə hiss edirik. Dövlətimizin əlinin daim çiynimizdə olması bizə qürur yaşadır.

Onu da deyim ki, ötən aylarda bir neçə veteran mənzil və minik avtomobili ilə təmin olundu, mənə də yeni avtomobil hədiyyə edildi. Bu gün doğma Naxçıvanımızda aparılan məqsədyönlü tədbirlər bir daha sübut edir ki, dövlət daim öz vətəndaşının yanındadır. Atılan hər bir addım, dövlətimizin bu istiqamətdə həyata keçirdiyi tədbirlərin ardıcıl olduğunu, müharibə iştirakçılarına, Çernobıl qəzasının aradan qaldırılması zamanı sağlamlığını itirmiş insanlara yüksək qayğı göstərildiyini sübut edir. Bu da o deməkdir ki, Vətən yolunda canından, sağlamlığından keçən hər bir vətəndaş dövlətimizin diqqətindən kənarda qalmır.

Dövlətimizin hər bir vətəndaşına qayğı ilə yanaşması gənc nəsli də dövlətimizi, Vətənimizi əzmkarlıqla müdafiəyə ruhlandırır, ölkəmizin firavan sabahına güclü inam yaradır.

**Mübariz BAĞIROV**
***Naxçıvan şəhəri***

## Vətənin müdafiəsi üçün bilik və bacarığımızı, var-qüvvəmizi əsirgəməyəcəyik

***Salam, hörmətli redaksiya!***



Mən bu il Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyi bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunmuşam. Sevincimin həddi-hüdudu yoxdur. Təbii ki, mən və ali hərbi məktəbə qəbul olunan digər yoldaşlarım muxtar respublikada təhsilin inkişafına yaradılan şəraitdən bəhrələnmişik. Onu deyim ki, IX sinfə qədər Naxçıvan şəhərindəki 12 nömrəli tam orta məktəbdə təhsil almışam. Hər il bu təhsil ocağının məzunları yüksək balla ali məktəblərə qəbul olunurlar.

VIII sinfi bitirəndə artıq harada təhsilimi davam etdirəcəyimi müəyyənləşdirmişdim. Valideynlərim də mənim hərbçi olmağımı arzu edirdilər. Hərbi Liseydəki üçillik kursantlıq dövründə burada ciddi tələbkarlıqla yanaşı, hərbi təhsilin inkişafına göstərilən qayğını da gördüm. Ən müasir tələblərə cavab verən təhsil ocağı, tibb məntəqəsi, idman zalı, futbol meydançası, açıq və qapalı idman qurğuları hər bir kursantı yaxşı oxumağa sövq edir. Liseyin müəllimlərinin bizim vətənpərvərlik, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunmağımız üçün çalışmaqlarını hər zaman minnətdarlıq hissi ilə xatırlayacağam. Artıq ali hərbi məktəbin kursantıyam, burada təhsil alacağım dövrdə də müəllimlərimizin liseydə bizə verdikləri tövsiyələrə əməl edəcəyəm.

Muxtar respublikada təhsilin inkişafına yaradılan hərtərəfli şərait üçün dövlətimizə dərin minnətdarlığımı bildirirəm.

Onu da deyim ki, bu gün dövlətimiz ərazi bütövlüyümüzün təmin olunması, düşmən tapdağı altında olan torpaqlarımızın azad edilməsi üçün ölkənin hərbi qüdrətinin artırılması, ordu quruculuğu istiqamətində uğurlu siyasət həyata keçirir. Biz gələcəyin hərbçiləri də Vətənin müdafiəsində öz bilik və bacarığımızı, iradəmizi əsirgəməməli, mükəmməl hərbi təhsilimiz üçün yaradılan şəraitə əməli fəaliyyətimizlə cavab verməliyik.

**Feyzulla ƏLİYEV**
***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı***

## Təqaüdçülərə diqqət bizi sevindirir



*Hörmətli redaksiya, salam!*

Bu gün Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikamız özünün inkişaf, tərəqqi və intibah dövrünü yaşayır. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası muxtar respublikanın bütün bölgələrində uğurla həyata keçirilir. 1995-ci ildən qədim diyarımızda başlanan genişmiqyaslı quruculuq, abadlıq tədbirləri Şərur rayonunu da öz ağuşuna alıb. Şərur günü-gündən inkişaf edir, gözəlləşir. İstər Şərur şəhərində, istərsə də kənd yaşayış məntəqələrində əmək bulaq kimi qaynayır. Bütün bunlar, təbii ki, bir şərurlu kimi bizi çox sevindirir.

Bu məktubumda isə, əsasən, muxtar respublikamızda əhalinin, o cümlədən veteranların, təqaüdçülərin, əhıl vətəndaşların qayğısına qalınmasından, onların asudə vaxtlarını, istirahətlərini səmərəli keçirmələri üçün hər cür şərait yaradılmasından söz açmaq istəyirəm. İyulun 2-də Ali Məclis Sədrinin xeyir-duası ilə rayon mərkəzində unikal bir binanın – Təqaüdçülər Klubunun açılışı olub. Burada biz təqaüdçülərin yetərincə mədəni istirahət etməsi, mənalı vaxt keçirməsi üçün hər cür şərait yaradılıb. Əlbəttə, həssas qəlbli veteranlar, təqaüdçülər, əhıl vətəndaşlar bunu çox böyük sevinc hissi ilə qarşıladı. Asudə vaxtlarımızda gedib orada həmyaşıdlarımızla həmsöhbət olmaq, axşamlar həyətində əyləşib dincəlmək bizə zövq verir. Mən fəxrlə deyirəm ki, hər kəs gəlib rayonda gedən inkişaf tempini, dinamikasını görə, biz veteranların da diqqət və qayğıdan kənarda qalmadığının şahidi ola bilər.

Mən rayonun bütün veteranları, təqaüdçüləri, əhıl vətəndaşları adından bizə göstərilən bu diqqət və qayğıya görə dövlətimizə minnətdarlığımı bildirirəm.

**Vidadi SÜLEYMANOV**
***Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Şərur Rayon Təşkilatının sədri***

## Yaradılan şərait torpaq mülkiyyətçilərini daha da ruhlandırır



*Hörmətli redaksiya!*

Muxtar respublikamızda uğurla həyata keçirilən torpaq islahatları ilə bu qiymətli sərvətimiz əsl sahiblərinə verildi. Hər bir kənd adamı öz torpağında əkinçiliyin müxtəlif sahələri ilə məşğul olmağa başladı. Düzdür, ilk vaxtlarda çətinliklər də az olmadı. Torpaq mülkiyyətçiləri keyfiyyətli toxum, texnika, su problemləri ilə üzləşsələr də, qısa vaxtda bunların da həll olunacağına inanırdılar. Mən özüm də o çətinlikləri yaşamışam. Ancaq bu gün fərəh hissi keçirirəm ki, muxtar respublikamızda bir qarış torpaq belə, əkilməmiş qalmır. Hətta bələdiyyələrin fondunda saxlanmış torpaqlardan da qanunla müəyyən edilmiş qaydada istifadə olunur.

Mövcud şəraitdən bəhrələnən bir torpaq mülkiyyətçisi kimi mən də bu məktub vasitəsilə öz minnətdarlığımı bildirmək istəyirəm ki, bizə belə imkanlar yaradılıb. Üç övladımla birlikdə ötən ilin payızında və cari ilin yazında 94 hektar sahədə taxıl əkini aparmışdıq. Bunun 5 hektarı arpa, 40 hektarı sulu, 49 hektarı Darıdağ ərazisində dəmyə sahədə əkdiyimiz buğda idi. Bütün aqrotexniki tədbirləri vaxtlı-vaxtında yerinə yetirdik. Bol məhsula sahib olduq. Həm taxıl əkinində, həm tədarükündə texnika sarıdan da çətinliyimiz olmadı. Çünki əvvəlki illərdə təsərrüfatımızdan qazandığımız gəlirlə yerşumlayan və gübrəsəpən traktorlar, kombayn, çizel almışıq. Bu texnikalarla həmkəndlilərimizə də əl tuturuq.

Cari ildə də əldə etdiyimiz məhsulun bir hissəsini gələn ilin məhsulları üçün toxum kimi ayırmış, bir hissəsini digər tələbatlar üçün saxlamış, yerdə qalanını satmışam.

Hazırda əkiləcək sahələrdə şum qaldırmağa başlamışıq.

Bizə yaradılmış şəraitə görə dövlətimizə minnətdarlığımızı bildiririk.

**Hacı Həsənəli ƏSGƏROV**
***Culfa rayonu, Bənəniyar kənd sakini***

## Sakinlərə dövlət qayğısı

***Salam, hörmətli redaksiya!***

Bu məktubu sizə Naxçıvan şəhərindən yazıram. Hamımıza məlum olduğu kimi, muxtar respublikamızda böyük tikinti-quruculuq işləri aparılır, yeni binalar tikilir, gözəl parklar salınır, küçələr abadlaşdırılır. Görülən işlər təkcə biz şəhər sakinlərinin deyil, bura gələn qonaqların da zövqünü oxşayır. Şəhərimizdə diqqət yetirilən sahələrdən biri də yaşayış binalarının əsaslı şəkildə yenidən qurulması və təmir olunmasıdır. Son illərdə paytaxt Naxçıvan şəhərində onlarla yaşayış binası təmir olunaraq, müasir memarlıq nümunələri ilə zənginləşdirilərək sakinlərin istifadəsinə verilib.



Hazırda yaşadığımız Naxçıvan şəhəri, Zəroş Həmzəyeva küçəsindəki 2 nömrəli yaşayış binası da bir müddət idi ki, əsaslı təmir olunurdu. Bina sovet dövründə tikildiyindən fasadı baxımsız vəziyyətə düşmüş, kommunikasiya xətləri bir neçə dəfə təmir olunsa da, tələblərə cavab vermirdi. Lakin burada aparılan təmir işləri nəticəsində binanın görkəmi xeyli dəyişmiş, dam örtüyü, işıq, qaz, su xətləri yenilənmiş, giriş qapıları yeniləri ilə əvəz olunmuşdur. Bundan əlavə, binanın ətrafı da abadlaşdırılmış, uşaqların, həm də böyüklərin istirahəti üçün lazımi şərait yaradılmışdır. Bütün bunlar bina sakinləri kimi bizi sevindirməyə bilməz. Bilirik ki, görülən bu işlərin əsasında sakinlərə böyük dövlət qayğısı dayanır. Biz də, öz növbəmizdə, dövlətimizə minnətdarlığımızı bildirir, qurulub-yaradılanları qorumaqla bu qayğıya əməli işimizlə cavab verməyə çalışacağıq.

**Yusif MƏMMƏDOV**
***Naxçıvan şəhər sakini***

*Fəaliyyət göstərdiyim Naxçıvan Qarnizonu tam orta məktəbində 600-dən çox şagird təhsil alır. Tədris ocağında əlamətdar və tarixi günlərlə, milli-mənəvi dəyərlərlə bağlı keçirdiyimiz tədbirlər davamlı xarakter alıb.*

## Bu təhsil ocağında şagirdlərə vətənpərvərlik tərbiyəsi aşılanır, Vətənə sadiq, məğlubedilməz, qəhrəman nəslin yetişməsinə nail olunur



Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin Vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb və ona həyati əhəmiyyətli məsələ kimi baxıb. Bu, bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissləri yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir.

Biz şanlı tariximizlə, ölməz qəhrəmanlarımızla tarixin bütün dövrlərində fəxr etmişik və bu gün də fəxr edirik. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Cəmşid Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə kimi igid və cəsur sərkərdələrimizin şəxsi nümunəsi bizə deməyə əsas verir ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Və bu xalq öz Vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetişdirib. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında canlarını fəda edən – Mübariz İbrahimovun, Polad Həşimovun, İlqar Mirzəyevin, Çingiz Mustafayevin, Yusif Mirzəyevin, Mikayıl Cəbrayılovun, Qabil Orucəliyevin, Rasim Məmmədovun və onların şəxsində yüzlərlə qəhrəmanımızın ibrətamiz həyatı, şəxsi nümunəsi apardığımız hərbi-vətənpərvərlik tərbiyəsi işində ön plandadır. İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Vətənpərvərlik həm də Vətən naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərməkdir. Bu baxımdan məktəbimizdə Gənclərin çağırışaqədərki hazırlığı fənni yüksək səviyyədə tədris olunur və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında xüsusi əhəmiyyət daşıyır. X-XI sinif şagirdlərinə Azərbaycanın Silahlı Qüvvələri haqqında məlumatların, hərbi nizamnamə qaydalarının mənimsədilməsi, onların ordu həyatı ilə tanışlığı diqqət mərkəzində saxlanılır, hərbi xidmətə fiziki və psixoloji cəhətdən hazır olmalarına böyük önəm verilir. Vətənpərvərlik, əqidəlilik, dözümlülük, cəsurluq, intizam və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi, mülki müdafiə və ilkin tibbi yardım bacarıqlarının formalaşdırılması yüksək şəkildə həyata keçirilir. Ölkəmizin tarixi haqqında sistemli, uşaqların başa düşəcəyi tərzdə verilən məlumatlar da vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. İstər dərsliklərdəki ayrı-ayrı mətnlərdə, istərsə də tərbiyəvi söhbətlər, tədbirlər zamanı verilən belə məlumatlardan şagirdlər Vətənimizin zəngin tarixi, xalqımızın zaman-zaman öz varlığını qorumaq üçün apardığı mübarizələr, azadlıq və müstəqillik uğrunda gedən mücadilələr haqqında biliklər əldə edir, bu biliklər əqidəyə çevrilərək onlarda vətənpərvərlik hisslərini daha da artırır. Vətənpərvərlik tərbiyəsində xalqımızın qəhrəman oğulları, tarixi şəxsiyyətləri haqqında şagirdlərə verilən məlumatlar, aşılanan biliklər də güclü təsir qüvvəsinə malikdir. Bu onların Vətənə məhəbbət və sədaqət ruhunda böyümələrinə, xalqımıza xas olan ən yaxşı mənəvi və əxlaqi keyfiyyətlərə yiyələnmələrinə müsbət təsir göstərir. Məktəbdə qan yaddaşımızla bağlı, xüsusilə Aprel döyüşlərinə, Günnüt zəfərinə həsr olunan tədbirlərin keçirilməsində şagirdlərimiz yaxından iştirak edir, bütün bacarıqlarını ortaya qoyaraq əsl vətənpərvərlik nümunəsi göstərirlər.

Ümummilli lider Heydər Əliyev müstəqil düşüncə tərzinə sahib vətənpərvər nəslin yetişməsini qürur hissi ilə belə vurğulayırdı: ***"Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var".***

Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik, sadəcə, orduda xidmət deyil, Vətənə sadiq olmaq, onu sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik! Ulu öndər Heydər Əliyevin fikrincə, dövlətçiliyimizin möhkəmlənməsi gənclərin bir şəxsiyyət kimi formalaşmasından, onların milli ruhda tərbiyəsindən çox asılıdır. Milli ruh, hər şeydən öncə, vətənpərvərlik ruhudur. İbtidai siniflərdə bu mövzuda şeirlər öyrənən, keçirilən müxtəlif tədbirlərdə məlumat əldə edən şagirdlər V sinifdə artıq geniş və sistemli şəkildə tarixi biliklər qazanır. Kimlərə şəhid deyilir, şəhidlik zirvəsi, buna çatmağın yolları, xalqımızın and yeri, qan yaddaşı, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, təkrarlanan tarix kimi məfhumlar dərs zamanı şagirdlərə izah edilir. Uşaqlarımızın təlim-tərbiyəsi yolunda atdığımız hər bir mütərəqqi addım onların sağlam bədənli, sağlam ruhlu, hərtərəfli inkişaf etmiş bir gənc kimi yetişməsinə töhfədir.

Şagirdlərin fiziki tərbiyəsinin düzgün aparılması da onların fiziki kamilliyinə yol açır. Məktəbimizin fiziki tərbiyə müəllimləri bu dərslərin optimal təşkilinə, perspektiv planlaşdırmanın tələbləri səviyyəsində qurulmasına çalışır, şagirdlərin fiziki cəhətdən sağlam formalaşmasında bütün imkanlardan məharətlə istifadə edirlər.

Məktəbimiz 2020-ci ilin iyun ayında Azərbaycan Respublikasının 47 məktəbi arasında keçirilən "Vətənimizə xidmət edək, şagirdlərin Azərbaycançılıq məfkurəsi ruhunda tərbiyəsi, hərbi dərslərə innovativ yanaşma" mövzusu ilə IV Qrant müsabiqəsində iştirak edib. Məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Natiq Əhmədovun üzərində işlədiyi layihə müsabiqədə yer tutub. Layihədə şagirdlərin milli ruhda tərbiyə olunması, ümumi təhsil müəssisələrində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması, onlarda vətənpərvərlik hissinin yüksəldilməsi, milli adət və ənənələrin təbliğinə yönələn məktəbdənkənar fəaliyyətlərin həyata keçirilməsi, Azərbaycançılıq məfkurəsinə sadiq olan, sərbəst qərarlar qəbul etməyi bacaran, müstəqil, yaradıcı düşünən, sağlam həyat tərzinə, müasir dünyagörüşünə, yüksək mədəniyyətə və intellektə malik vətəndaş və şəxsiyyət yetişdirmək istiqamətində pedaqoji heyətin bilik və bacarıqlarının inkişaf etdirilməsi məsələsi əsas məqsəd kimi qarşıya qoyulub. Yeni dərs ilində layihədə nəzərdə tutulan məsələlərin məktəbimizdə tətbiq edilməsi müəllimlərin məsuliyyətini daha da artıracaq.

*Təhsil ocağının bütün pedaqoji kollektivi böyük səylə şagirdlərə vətənpərvərlik tərbiyəsinin yüksək şəkildə aşılanmasını gündəlik vəzifə kimi qarşıya məqsəd qoyub. Sağlamdüşüncəli, vətənpərvər gənclərin yetişdirilməsində bundan sonra da potensial gücümüzdən tam şəkildə istifadə edəcəyik.*

**Ulduz EYVAZOVA**
***Naxçıvan Qarnizonu tam orta məktəbinin tarix müəllimi***

## Əməkdaşlıq əlaqələri genişlənir

Türkiyə Cümhuriyyətində səfərdə olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, "Naxçıvan" Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu Çankaya Universitetinin İdarəetmə şurasının üzvü, İctimaiyyətlə əlaqələr və reklam şöbəsinin müdiri, 22 və 24-cü çağırış Türkiyə Böyük Millət Məclisinin deputatı, Yıldız Sarayı Fondunun sədri, UNESCO-nun Mədəni İrs Komissiyasının Türkiyə üzrə nümayəndəsi professor Zeynəb Qarahan Uslu ilə görüşüb.

Görüş zamanı universitetlərarası əlaqələrin inkişafı, informasiya və kommunikasiya texnologiyaları sahəsində birgə əməkdaşlıq barədə razılıq əldə olunub. Həmçinin Naxçıvan Muxtar Respublikasında mədəni irsin, Türkiyə coğrafiyasında Naxçıvana aid olunmuş abidələrin araşdırılması və birgə beynəlxalq konfransların təşkili məsələləri müzakirə olunub.

Hüseyn Bağırsoylu Azərbaycanda, xüsusilə Naxçıvan Muxtar Respublikasında tarixi abidələrin qorunub saxlanılması sahəsində görülən işlərdən danışıb.

**Seyfur HACIMURADOV**

## Monitorinqlər davam etdirilir



***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin və Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin əməkdaşlarından ibarət yaradılmış işçi qrupu Ordubad Rayon İcra Hakimiyyəti nümayəndələrinin iştirakı ilə rayon ərazisində fəaliyyət göstərən bələdiyyə mülkiyyətində kənd təsərrüfatına yararlı olan torpaqlara baxış keçirib.***

Monitorinq zamanı qeyd olunub ki, dövlət səviyyəsində aqrar sahədə həyata keçirilən islahatlar, bu sahəyə göstərilən diqqət və qayğı istehsalçıların yeni nailiyyətlər qazanmasına şərait yaradır.

Vurğulanıb ki, torpaq sahələrinin mülkiyyətçiləri əkin sahələrinin genişləndirilməsi üçün, xüsusilə bələdiyyə mülkiyyətində olan torpaqlardan da icarə üsulu ilə istifadə edirlər. Bələdiyyə torpaqlarının icarəyə verilməsi ilə bağlı məsələlərin qanunvericiliklə tənzimlənməsi torpağın icarəyə verilməsi hüququnun həyata keçirilməsinə geniş imkanlar yaradır. Bələdiyyə torpaqları icarəyə verilərkən qanunvericiliyə uyğun olaraq icarəyəverən ilə icarəçi arasında müqavilə bağlanır və müqavilədəki şərtlər tərəflərin razılığı ilə müəyyənləşdirilir. İcarə müqaviləsində icarəyə verilən torpaq sahəsinin ölçüsü, keyfiyyət kateqoriyası, təyinatı, icarənin müddəti, icarə haqqı, ödənilmə qaydaları, torpaqların istifadəsi, mühafizəsi və keyfiyyətinin yaxşılaşdırılması şərtləri nəzərdə tutulmalıdır.

Monitorinq zamanı vətəndaşlara ətraflı məlumat verilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Dövlət Rəsm Qalereyasına onlayn ekskursiya

*Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Rəsm Qalereyasında onlayn ekskursiya keçirilib.*

Ekskursiyanın əvvəlində bələdçi Tomris Cəlilova muzeytipli müəssisə kimi fəaliyyət göstərən Naxçıvan Dövlət Rəsm Qalereyası haqqında məlumat verib. Bildirib ki, qalereyanın fondunda hazırda 150-dən çox rəssamın 500-ə yaxın rəsm əsəri mühafizə olunur, ekspozisiya zalında 100-ə yaxın rəsm əsəri nümayiş etdirilir.

Qalereyanın ekspozisiyası haqqında geniş məlumat verən bələdçi qeyd edib ki, ekspozisiyanın 1-ci guşəsini ulu öndər Heydər Əliyevə həsr olunmuş rəsm əsərləri və büstlər təşkil edir. Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov, Rəfael Qədimov, İlham Mirzəyev və digər tanınmış rəssamların əsərləri qalereyanın dəyərli eksponatlarındandır.



Guşədə nümayiş olunan ulu öndərin heykəltəraş, rəssam Elman Cəfərov tərəfindən hazırlanmış, həmçinin "Gəmiqaya" Holdinq tərəfindən qalereyaya hədiyyə olunmuş büstləri, mis üzərində ofort üslubu ilə işlənmiş portreti tamaşaçıların diqqətini cəlb edir.

Ekspozisiyanın 2-ci guşəsi mənzərə və kompozisiya janrında çəkilmiş əsərlərə həsr olunmuşdur. Burada Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Sabir Qədimovun, Naxçıvanda yaşayıb-yaratmış görkəmli fırça ustaları Nəriman Əliyevin, Babək Abuzərlinin, Əyyub Səfərovun, realist rəssam Nadir Axundovun, rus rəssamı R.F.Qolovanovun kompozisiya, mənzərə və portret janrlarında yaratdığı dəyərli əsərlər nümayiş olunmaqdadır.

Bələdçi bildirib ki, növbəti guşədə Azərbaycanın xalq rəssamlarının əsərləri sərgilənir. Burada sərgilənən Azərbaycan Respublikasının Xalq rəssamları – Əyyub Hüseynovun və professor Hüseyn Əliyev, Azərbaycan Respublikasının Xalq rəssamı Mikayıl Abdullayev, professional rəssamlıq təhsili almış ilk azərbaycanlı qadın, dövlət mükafatı laureatı Maral Rəhmanzadənin rəsm əsərləri haqqında izləyicilərə məlumat verilib.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müvafiq sərəncamı ilə 2012-ci ildən başlayaraq "Naxçıvan – bəşəriyyətin beşiyi" Beynəlxalq Rəsm festivalları keçirilir. Muxtar respublikada 2012, 2014, 2016 və 2018-ci illərdə təşkil olunan beynəlxalq rəsm festivallarında dünyanın müxtəlif ölkələrindən gəlmiş istedadlı fırça ustaları iştirak edib. Qalereyanın növbəti guşəsi Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi tərəfindən hədiyyə olunmuş, festivallarda çəkilən rəsm əsərlərinə həsr edilmişdir.

Nəzərə çatdırılıb ki, sonuncu guşədə naxçıvanlı rəssamların müxtəlif janrlarda çəkilmiş dəyərli rəsm əsərləri nümayiş olunmaqdadır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Babək rayonu, Uzunoba kənd sakini Yusifov Pirəli Adil oğlunun adına olan JN-0085 inventar nömrəli, 10311048 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Maxta kənd sakini Əliyev Hidayət Məhəmməd oğlunun adına verilmiş 1420 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 630